# Epo Epocement

## Texniki Məlumat Səhifəsi

### MƏHSUL HAQQINDA

*EPOCEMENT S40 sement əsaslı və lif tərkibli olub, modifikasiyalı polimerləşdirilmiş istilik izolyasiya lövhələrinin suvanmasında istifadə olunan suvaq məhsuludur. AZS 039 -2000 (TS 11140 -1993) "Yapışdırıcılar- sement əsaslı (hidravlik bağlayıcılı) kafel, keramika və döşəmə plitələri üçün" standartın tələblərinə uyğundur.*

### İSTİFADƏ SAHƏLƏRİ

*Bu məhsuldan:*

*mantolama işlərində istilik izolyasiya lövhələrinin suvanmasında;*

*dəmir-beton səthlərə boya vurulmamışdan öncə səthin suvanmasında istifadə olunur.*

### ÜSTÜNLÜKLƏRİ

mükəmməl yapışma qabiliyyətinə malikdir;
lif tərkibli olduğu üçün suvanmış səthdə çat əmələgəlmə ehtimalını minimuma endirir;
rahat hazırlanır və tətbiq olunur;
istifadə müddəti uzundur;
üzərinə birbaşa boya çəkilə bilər;
şaxtaya və istiliyə davamlıdır.

### İSTİFADƏ QAYDALARI

***Səthin hazırlanması.*** EPOCEMENT S40 suvağının istifadə olunması üçün istilik izolyasiya lövhələrinin səthə normal qaydada yapışdırılması və dubellənməsi vacibdir. Lövhələr küləyin təsirindən və digər təsirlərdən tərpənməməlidir.

***Qarışığın hazırlanması.*** 25 kq quru qarışığı yavaş-yavaş təmiz bir qaba 5.5-6.5 litr suyun üzərinə boşaldın və kürəciklər yox olana qədər 3-5 dəqiqə qarışdırın. Qarışığın özünü tutması üçün 3-5 dəqiqə gözləyin və yenidən 30 saniyə qarışdırdıqdan sonra məhsulu istifadəyə hazır vəziyyətə gətirin.

***Tətbiqi***. EPOCEMENT Y40 ilə yapışdırılmış və dubellənmiş istilik izolyasiya lövhələrinin səthinə bir qat EPOCEMENT S40 çəkin. Sonra sıva filesini (tor) birinci qata otuzdurun. Ardınca ikinci qat

**"EPO YAPI KIMYA" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az

EPOCEMENT S40 suvağını səthə çəkin. EPOCEMENT S40 tələb olunan bərkliyə çatdıqdan sonra üzərinə qoruyucu fasad boyası çəkilə bilər.

***Tövsiyələr.*** Yapışdırıcının istifadə olunduğu mühitin temperaturu +5°C-dən aşağı və ya +30°C–dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti, yağışlı və küləkli havalarda məhsuldan istifadə olunmamalıdır. Xarici məkanlarda istilik izolyasiya lövhələri ilə örtülmüş səth 24 saat günəş şualarından, küləkdən və yağışdan qorunmalıdır. Qurumağa başlamış qarışığa qətiyyən su və yeni məhsul əlavə olunmamalıdır.

## TEXNİKİ GÖSTƏRİCİLƏR

| | |
|---|---|
| Rəngi | boz |
| İstifadə temperaturu | +5 ÷+30°C |
| Qopma muqaviməti:<br>*betonda*<br>*istilik izolyasiya lövhələrində* | <br>≥ 1,0 N/mm $^2$<br>≥ 0,2 N/mm $^2$ |
| İstifadə qalınlığı:<br>*minimum*<br>*maksimum* | <br>3 mm<br>5 mm |
| İstifadə müddəti | 1 saat |
| Həcm kütləsi | 1,86 kq / litr |
| Su /quru qarışıq nisbəti | 4,6 litr su / 20 kq quru qarışıq |
| Qablaşdırma | 2 və ya 3 qatı kraft kağız və 1 qatı polietilendən ibarət 20 kq-lıq kisələrdə |

**“EPO YAPI KIMYA” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Ünvan: Qarabağ,Xocalı rayonu Malıbəyli kəndi.
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.epo.com.az

## SƏRFİYYAT

EPOCEMENT S40 suvaq məhsulunun sərfiyyatı 3 mm qalınlıq üçün 4,5 kq/m $^2$-dır. 20 kq-lıq EPOCEMENT S40 suvaq məhsulu ilə təxminən 5,0-5.5 m$^2$ səthi suvamaq mümkündür.

## SAXLANMA MÜDDƏTİ VƏ QAYDASI

Açılmamış kisələrdə, quru şəraitdə, taxta altlıqlar üzərində maksimium 10 ədəd olmaqla 12 ay müddətində saxlanıla bilər.

## XƏBƏRDARLIQLAR

EPOCEMENT S40 suvaq məhsulunun mürəkkəb tərkibli qarışıq olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun; istifadə qaydalarında qeyd edilməyən heç bir maddə qatmayın; yuxarıdakı göstəricilər +23$^0$C±2$^0$C temperatur və 50% ±5% rütubətli şəraitdə aparılan sınaqlar nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

## ZƏMANƏT VƏ TEXNİKİ DƏSTƏK

texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
"EPO YAPI KIMYA" şirkəti məhsulun keyfiyyətinə və təhlükəsizliyinə görə məsuliyyət daşıyır;
şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə halları zamanı yarana biləcək problemlərə görə "EPO YAPI KIMYA" şirkəti məsuliyyət daşımır;
şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
texniki dəstək və ya daha geniş məlumat almaq üçün "EPO YAPI KIMYA" şirkətinə müraciət edin!